*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (2) 2024*

*Derleme Makale | Review Article*
*Geliş tarihi |Received:11.02.2024*
*Kabul tarihi |Accepted:05.04.2024*
*Yayın tarihi |Published:25.04.2024*
*https://doi.org/10.46868/atdd.2024.*

**Hikmet Abdullayev**

*https://orcid.org/0009-0008-3198-0212*
*Doctor, Zekalar High School, Azerbaijan, hikmetabdulla15@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Abdullayev, H. (2024). Azərbaycanın Qarabağ zəfərinə gedən yolu. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (2), 859-872.

# Azərbaycanın Qarabağ zəfərinə gedən yolu

***Xülasə***

*XX əsrin sonlarında Ermənistan Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edərək beynəlxalq hüququn prinsiplərini pozmuş və Azərbaycana qarşı hərbi təcavüz həyata keçirmişdir. Bununla da Azərbaycanın Qarabağ bölgəsində ermənilər tərəfindən 20 faiz ərazilər işğal olunmuş, Ermənistanın Azərbaycan türklərinə qarşı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox insan dogma torpaqlarını tərk etmək məcburiyyətində qalmışdır. Təəssüflər olsun ki, 30 illik bir dövr ərzində (1991-2020-ci illər) erməni işğalının aradan qaldırılması məqsədi ilə Azərbaycan beynəlxalq müstəvidə həyata keçirdiyi siyasi və diplomatik danışıqlar nəticəsiz qalmış, hətta BMT Təhlükəsizlik Şurasında erməni işğalına son qoymaq məqsədilə qəbul edilmiş 822, 853, 874 ve 884 sayılı qətnamələr icra olunmamışdır. Keçən bu dövr ərzində Azərbaycan Respublikasının beynəlxalq müstəvidə nüfuzunun güclənməsi, davamlı şəkildə həyata keçirilən hərbi-siyasi islahatlar, ordu quruculuğunda əldə olunan böyük uğurlar işğal olunmuş torpaqların azad edilməsi zərurətini ortaya çıxarmışdır. Bunun nəticəsində Azərbaycanın 2020-ci ildə Qarabağ bölgəsində həyata keçirdiyi 44 günlük hərbi əməliyyatlar (27 sentyabr-9 noyabr/2020) nəticəsində erməni işğalına son qoyulmuşdur. Məqalədə, mənbə və elmi əsərlərə istinad edilərək Azərbaycanın Qarabağ Zəfərinə gedən uzun yolda hərbi-siyasi proseslərə ümumi nəzər yetirləcək, II Qarabağ Müharibəsinin səbəb nə nəticələri araşdırılacaq və müharibədən sonra Qarabağda başlanan Böyük Qayıdış prosesi tədqiq olunacaqdır.*

**Anahtar Kelimeler:** *Azərbaycan Respublikası, Prezident Ilham Əliyev, erməni işğalı, II Qarabağ Savaşı, Qarabağ Zəfəri*

BY NC
Creative Commons Licence

# Azerbaijan's Road to Victory in Karabakh

***Abstract***

*In the late 20th century, Armenia made territorial claims against Azerbaijan, violated the principles of international law and launched military aggression against Azerbaijan. At the same time, 20 per cent of the territory in the Karabakh region of Azerbaijan was occupied by Armenians, and as a result of Armenia's ethnic cleansing policy against Azerbaijani Turks, more than a million people were forced to flee their lands. Unfortunately, over a period of 30 years (1991-2020), Azerbaijan's political and diplomatic negotiations at the international level to end the Armenian occupation have failed, and even the UN Security Council resolutions 822, 853 have failed. Resolutions 874 and 884 adopted by the Council to end the Armenian occupation were not implemented. The strengthening of the reputation of the Republic of Azerbaijan at the international level, the continuous military and political reforms, the great successes achieved in the construction of the army have created the need to liberate the occupied territories. As a result, as a result of the 44-day military operations carried out by Azerbaijan in the Karabakh region in 2020 (27 September-9 November 2020), the Armenian occupation was ended. In the article, with reference to sources and scientific works, an overview of the military and political processes on the long road to Azerbaijan's Karabakh Victory will be given, the causes and consequences of the Second Karabakh War will be investigated, and the post-war return process in Greater Karabakh will be examined.*

***Keywords:*** *Republic of Azerbaijan, President Ilham Aliyev, Armenian occupation, Second Karabakh War, Karabakh Victory*

## Giriş

Hər bir xalqın, dövlətin strateji yolunu, siyasi taleyini, perspektivlərini müəyyənləşdirən həlledici anlar, tarixi əhəmiyyətə malik məqamlar var. Bir əsrdə iki dəfə müstəqillik qazanaraq istiqlaliyyət ideyasına və məfkurəsinə sadiqliyini, mübarizə əzmini, siyasi potensialını, zəngin dövlətçilik ənənələrini, eləcə də unikal, bənzərsiz milli dəyərlərini dünyaya nümayiş etdirən, tarixin ictimai-siyasi yaddaşına əbədi həkk etdirən Azərbaycan xalqı da bu baxımdan istisna deyil. XX əsrin 80-ci illərinin sonları - 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam

edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir (Ağalarlı, 2022). Azərbaycan Respublikasının Prezident İlham Əliyevin uğurlu, səmərəli və davamlı ordu quruculuğu siyasəti nəticəsində silah-sursat, texnika ilə təchizat, döyüş qabiliyyəti baxımından Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasına daxil oldu və öz sözünü döyüş meydanında dedi. 2016-cı ildə Ermənistanın diversiya-təxribat cəhdləri nəticəsində baş vermiş dördgünlük aprel döyüşləri Azərbaycan Silahlı Qüvvələrinin işğal altında olan torpaqlarımızı azad etmək gücündə, əzmində və iqtidarında olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycan Ordusu 2000 hektara yaxın ərazini, o cümlədən Lələtəpə və Talış yüksəkliklərini azad etməklə həm də "güclü Ermənistan ordusu" mifini darmadağın etmiş oldu. Şübhəsiz ki, 4 günlük döyüşlərdən 44 günlük müharibəyə gedən yolda atılan hər bir addım Azərbaycanın tarixi Qələbəsinə - möhtəşəm Zəfərinə etibarlı zəmin formalaşdırdı.

### 1.II. Qarabağ savaşı və sonucları

2019-cu ildən etibarən Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir. Ermənistanın baş naziri Nikol Paşinyan 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" açıqlaması ilə çıxış etdi. Buna qədər Ermənistan hərbi işğal və anneksiya siyasətinin beynəlxalq siyasi-hüquqi və mənəvi məsuliyyətini dərk edərək işğalçılıq siyasətini pərdələməyə və onu Dağlıq Qarabağın erməni əhalisinin öz müqəddəratını təyin etmək hüququ kimi göstərməyə çalışırdı. Paşinyanın bu bəyanatı Ermənistanın əsl məqsədinin işğalçılıq olduğunu aydın şəkildə göstərdi (https://president.az/az/pages/view/azerbaijan/).

Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırış ilə Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını ayaq altına atdı, beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsədrlərinə hörmətsizlik nümayiş etdirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı Paşinyanın bu bəyanatına cavab verdi: *"...bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə"* Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb.

Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi” (https://president.az/az/pages/view/azerbaijan/).

Həmçinin 2020-ci il fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Münhen Təhlükəsizlik Konfransı çərçivəsində panel müzakirələr baş tutdu. Azərbaycan Prezidenti müzakirələr zamanı Azərbaycanın münaqişə ilə bağlı haqlı mövqeyini bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı və Ermənistanın işğalçılıq siyasətini və saxta iddialarını tarixi faktlara və beynəlxalq hüquqa əsaslanaraq arqumentlərlə darmadağın etdi (https://president.az/az/pages/view/azerbaijan/).

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, “yeni ərazilər uğrunda yeni müharibə” çağırışı, mülki şəxslərdən ibarət “könüllü dəstələri” yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmaqla törətdikləri növbəti hərbi təxribat nəticəsində mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar olduğu, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə qarşı real və potensial hərbi təhdidlərin qarşısının alınması və zərərsizləşdirilməsi üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarına başlamışdır (Ağalarlı, 2023).

Azərbaycan Respublikasının Hərbi doktrinasına əsasən, Ermənistan Respublikasının Azərbaycan Respublikası ərazisinin bir hissəsini işğal altında saxlaması və problemin siyasi yolla tənzimlənməsi çərçivəsində işğal etdiyi əraziləri azad etməkdən imtina etməsi səbəbindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə hərbi güc daxil olmaqla bütün lazımi vasitələrdən istifadə etmək hüququnu Azərbaycan Respublikası özündə saxlayır. Azərbaycan Respublikası xalqın və ölkənin milli maraqlarını təmin etməyə qadir müstəqil, demokratik, hüquqi, dünyəvi, unitar dövlət olaraq, öz inkişafı naminə milli təhlükəsizlik siyasətini müəyyən edir və həyata keçirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə dərhal Təhlükəsizlik Şurasının iclası keçirilmiş, təcavüzkara adekvat cavab verilməsi istiqamətində konkret tapşırıqlar verilmişdir.Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandığı, ölkənin, əhalinin və ərazinin, eləcə də Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin müdafiəyə hazır vəziyyətə gətirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli Fərmanı ilə 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilmiş, 28 sentyabr 2020-ci il tarixli Sərəncam ilə Azərbaycan Respublikasında qismən səfərbərlik elan olunmuş, hərbi əməliyyatlara hazırlıq və onların keçirilməsinə dair qərarlar qəbul edilmişdir.

İlk gündən Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən başlanılmış əks-hücum əməliyyatları nəticəsində Azərbaycan Respublikasının bir neçə rayonunu, eləcə də strateji əhəmiyyətli digər əraziləri işğaldan azad edilmişdir (Məmmədov, 2022). Düşmən tərəfindən Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən və keçən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonlarını ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulmuşdur. Ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olmuş, 454 mülki vətəndaş yaralanmış, ümumilikdə 13360 yaşayış və qeyri yaşayış sahəsinə, 346 nəqliyyat vasitəsinə ziyan dəymiş, 1018 fermer təsərrüfatı üzrə zərər faktı aşkar edilmişdir. 2020-ci ilin 27 sentyabr - 10 noyabr müddətində Ermənistan həm döyüş meydanında, həm də münaqişə zonasından kənarda yerləşən Tərtər, Ağcabədi və Goranboy rayonlarını qadağan edilmiş və son dərəcə təhlükəli olan fosfor bombalarından 5 dəfə istifadə etməklə müxtəlif vaxtlarda atəşə tutmuşdur.

08 oktyabr, 03, 04 və 08 noyabr 2020-ci il tarixlərdə Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində, habelə Ermənistan Respublikasının ərazisində yerləşən hərbi birləşmələrinə rəhbərlik edən şəxslər və onların yaratdığı cinayətkar birliklər «Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair» 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq geniş miqyaslı dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etməklə mülki əhalinin və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərin sıx yaşadıqları Füzuli, Tərtər rayonları ərazilərində yerləşən yaşayış məntəqələrinə, habelə BMT-nin "Bioloji müxtəliflik haqqında" Konvensiyasının əsas təməl prinsiplərini pozaraq

ətraf mühitə qəsd edən geniş, uzun sürən və ciddi ziyan vurmaq, insanları qəsdən öldürmək məqsədilə Füzuli rayonunun Arayatlı, Alxanlı, Tərtər rayonunun Səhləbad kəndinə və Şuşa şəhərinin ərazisində yerləşən Azərbaycan Respublikasının təbii sərvəti hesab edilən qiymətli və çoxillik ağacları olan meşələrə hər birinin içərisində 3,6 kiloqram P-4 kimyəvi tərkibli (ağ fosfor) olan D-4 tipli 122 millimetrlik ən azı 6 top mərmiləri ilə atəş açaraq həmin ərazilərdə yerləşən təbii sərvətləri qəsdən yandırmaqla xüsusilə külli miqdarda ziyan vurmuş, Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə planlaşdırılmış və aparılmış, habelə terrorçuluq cinayəti törədilmişdir (Ağalarlı, 2022). Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir (Əhmədov, 2021). Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçmişlər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edilmişdir.

İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına,

hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq. Bütün bunlar Azərbaycana ərazi bütövlüyünün bərpası üçün çox mühüm üstünlüklər qazandırdı.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, bununla da, Ermənistan öz məğlubiyyətini etiraf etmişdir. 2020-ci il noyabrın 10-da imzalanan Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı ilə müharibə Azərbaycanın qələbəsi ilə nəticələnmişdir. Ermənistan kapitulyasiya olunaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur oldu (Güler, 2021). Ermənistan 30 ilə yaxın müddətdə işğalda saxladığı Azərbaycan torpaqlarının geniş miqyasını, hətta hərbi təyinatı olmayan torpaqları da minalamışdır. 10 Noyabr 2020-ci il tarixli Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası arasında Üçtərəfli Bəyanatda razılığın əldə olunmasına baxmayaraq, Ermənistan minalanmış xəritə və sxemləri təhvil verməkdən imtina edir. Bununla da, 1949-cu il tarixli Cenevrə Konvensiyalarının tələblərini, Avropa Konvensiyasının 2-ci və 8-ci maddələri, 1 saylı Protokolun 1-ci maddəsi və 4 saylı Protokolun 2 (1) və 3 (2) maddələrində müəyyən edilmiş təminatlar da daxil olmaqla, beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozur. Minalı bölgələr insanların həyatı üçün təhlükə yaratmaqla yanaşı, torpaqlardan səmərəli istifadə işinə də mane olur. Xeyli müddətdir ərazilərin minalardan təmizlənməsinə baxmayaraq, mütəmadi olaraq baş verən mina partlamaları nəticəsində mülki vətəndaşların xəsarət almaları və həlak olma faktları artır. Vətən müharibəsi Azərbaycan xalqının Qarabağ həsrətinə son qoyub, işğaldan azad edilmiş ərazilərdə ən müasir standartlarla bərpa və yenidənqurma işlərinə başlanılıb, Qarabağa həyat qayıdıb. Məhz Vətən müharibəsinin nəticəsi kimi Azərbaycanın Ermənistanla sərhəd xəttinin bərpasına başlanılıb və Zəngəzur dəhlizi yaxın müddətdə tarixi reallığa çevriləcək.

2021-ci il iyunun 15-də Şuşada imzalanmış Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində də Zəngəzur dəhlizinin açılmasının bölgənin həyatında yeni mərhələ olacağı öz əksini tapıb (Ağalarlı, 2023; Aslanlı, 2021). "Bəyannamə"nin Preambula hissəsində Tərəflər, "İki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bəyan edərək" bu müqaviləsinin siyasi əhəmiyyətini önə çəkmişdir (Böyük Qayıdış, 2021).

"Bəyannamə"də hərbi yardım barədə müddəalar müqavilənin hərbi – siyasi və təhlükəsizlik məsələlərinə dair 1-ci, 2-ci və 3-cü maddələrində öz əksini tapmışdır. Maddə 1- də göstərilir ki,

tərəflər qonşu və qardaş dövlətlər olaraq bir-birinin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin olunmasında və qorunmasında bir-biri ilə sıx əməkdaşlıq edəcəklər. Tərəflərin hər hansı biri ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının təhdid edildiyi və ya təhlükə altında olduğu qənaətində olduqda, Tərəflər bu təhdid və təhlükələrin aradan qaldırılması istiqamətində görülə biləcək tədbirlər barədə təxirəsalınmadan məsləhətləşmələr aparacaqlar (Rəşid, 2021).

Şuşa Bəyannaməsinin tarixi əhəmiyyətini Prezident İlham Əliyev dəqiq ifadə edib: "Bəyannamə"də xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir". XX əsrin sonlarında Heydər Əliyev demişdir: *"Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir".* Bu tarixi sözlər, kəlamlar bizim fəaliyyətimiz üçün əsas amildir. Biz bu vəsiyyətə sadiqik və XXI əsrdə azad edilmiş Şuşada Müttəfiqlik Bəyannaməsini imzalayarkən əcdadlarımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk. Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir" (Adıgözəlov, 2021).

Şuşa Bəyannaməsində "Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının "Ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyi" xüsusi olaraq vurğulanmışdır (Zəfər yolu, 2021).

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalanması Cənubi Qafqazda yeni bir geosiyasi mərhələnin əsasını qoymuşdur. Eyni zamanda bu "Bəyannamə" ilə Türkiyə-Azərbaycan münasibətləri strateji tərəfdaşlıq səviyyəsindən müttəfiqlik müstəvisinə qədəm qoymuşdur. "Şuşa Bəyannaməsi" Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunmasında, Avro-Asiya nəqliyyat dəhlizinin inkişafında, türk dünyasının inteqrasiya prosesində, xüsusilə də Azərbaycan-Türkiyə münasibətlərinin daha da inkişaf etdirilməsinə böyük əhəmiyyətə malikdir (Ağalarlı, 2023).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsindən sonra qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyü və suverenliyinin tanınmasını ehtiva edən 5 əsas prinsip əsasında Ermənistan ilə sülh müqaviləsinin hazırlanması təşəbbüsü ilə çıxış etdi. 2022-ci il

oktyabrın 6-da Praqada *"Avropa Siyasi Birliyi"* Zirvə Toplantısı çərçivəsində keçirilmiş dördtərəfli görüşdə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan etdi.

Ermənistan tərəfindən Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində təbii sərvətlərimizin qanunsuz istismarına etiraz əlaməti olaraq 2022-ci il dekabrın 12-dən etibarən qeyri-hökumət təşkilatları nümayəndələrinin, ekofəalların Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində dinc etiraz aksiyası başlanılmış və 138 gün davam etmişdir.

2023-cü il aprelin 23-də növbəti tarixi hadisə baş verdi. Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi quruldu. Bununla da Azərbaycanın ərazi bütövlüyünün tam bərpası prosesi başa çatdı. Ermənistanın Laçın yolundan sui-istifadəsinə, silah və sursatların daşınmasına və digər qanunsuz əməllərinə son qoyuldu (Mustafayev, Məhərrəmov, 2023).

Sual oluna bilər: Bəs nə oldu ki, Azərbaycan lokal xarakterli hərbi əməliyyatlara start verdi? Bu əməliyyatları zəruri edən nə idi?

İlk öncə onu qeyd edək ki, Ermənistanın və qondarma rejimin qalıqlarının təxribatları səngimədi. Ermənistanın Baş naziri Nikol Paşinyan 2023-cü il sentyabrın 2-də qondarma *"Dağlıq Qarabağın müstəqillik bəyannaməsi"*nin ildönümü ilə əlaqədar təbrik müraciəti ünvanladı.

İkinci önəmli səbəb son zamanlar erməni separatçılarının Azərbaycanın dövlətçilik dəyərlərinə ümumiyyətlə hörmət etməmələri idi. Məlum olduğu kimi, bütün dünya Qarabağı Azərbaycanın ərazi hüdudları daxilində olduğunu, orada yaşayan erməniləri bizimlə reinteqrasiyaya çağırsa da, hətta Ermənistan rəsmilərinin özləri belə, bu beynəlxalq tələblərlə sözdə razılaşsa da, biz Xankəndidə daha fərqli mənzərə ilə qarşılaşırdıq. Sentyabrın 9-da qondarma "Dağlıq Qarabağ"ın qondarma hakimiyyət orqanları "seçki" keçirdilər, özlərinə yeni başçı seçdilər, bu isə mövcud reallıqların tam şəkildə inkar edilməsi demək idi və sentyabrın 19-da Azərbaycana antiterror tədbirləri keçirmək və öz suverenliyini tam şəkildə bərpa etmək üçün başqa seçim yolu qoymadı.Qarabağ erməniləri müstəqillik iddialarından əl çəkmir, özlərinin oyuncaq "prezident"lərini seçir, qondarma "parlament"ləri adından Azərbaycan dövlətinin əleyhinə bəyanatlar verirdilər. İstənilən dövlət bu separatçı iddialara laqeyd qala bilməz, öz suverenlik hüquqlarının bərpası üçün antiterror əməliyyatlarına başlayardı (Əvəz, 2023). Üçüncüsü, ermənilərin yalandan "humanitar böhran" görüntüsü yaradaraq, beynəlxalq müzakirələrdə söhbəti "xalqların öz müqəddaratını təyinetmə" hüququna gətirmək istədikləri aydın sezilirdi. Beynəlxalq müzakirələrdə guya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan edən Nikol

Paşinyan hökuməti də müxtəlif siyasətlərlə onların bu iddialarını dəstəkləyir, bəzi təxribatçı addımlara əl atırdı. Məsələn, İrəvandan Qarabağa "humanitar yardım" göndərir, Fransa kimi bəzi dövlətlərdəki lobbilərini də bu təxribatlara cəlb etməyə çalışırdı. Azərbaycanın "vətəndaşlarıma humanitar yardım lazımdırsa, özüm bunu edərəm" çağırışlarına isə Xankəndidəki qondarma rejim yolları bağlayaraq məhəl qoymurdu. Ağdam yolunun ermənilər tərəfindən bağlanması açıq şəkildə ölkəmizin öz əraziləri üzərindəki suverenlik hüququnun pozulması idi və hər bir dövlətin DİN və Dövlət Təhlükəsizlik orqanlarının bu vəziyyət qarşısında ata biləcəyi yeganə addım vardı: antiterror əməliyyatlarına başlamaq.

Dörüncüsü, son bir neçə ayda Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin fəallaşması müşahidə olunur və onlar dinc dayanmır, müxtəlif terror aksiyaları törədir, yaxud buna hazırlaşırdılar. Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyin artmasına səbəb olmuşdu. Lokal xarakterli antiterror hadisəsinin keçirildiyi gün sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması bardağı daşıran son həmlə oldu. Həmin təxribat nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxdı və mülki şəxslər dünyasını dəyişdilər. Həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsi də eyni şəkildə mina terroruna məruz qaldı, xeyli sayda polis əməkdaşımız, hərbi qulluqçularımız şəhid oldu və yaralandı. Bütün bunlar Azərbaycanı Qarabağdakı erməni terrorçularını zərərsizləşdirmək üçün lokal hərbi əməliyyatlar keçirmək məcburiyyətində qoydu.. Bu, Azərbaycanın bütün beynəlxalq konvensiyalarda təsbit olunmuş legitim hüququdur və heç bir beynəlxalq təşkilat bu tədbirlərin keçirilməsinə görə ölkəmizi qınaya bilməz. Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir və bu birləşmələr dərhal, qeyd-şərtsiz zərərsizləşdirilməlidir.

Ali Baş Komandan İlham Əliyev dəfələrlə çıxışlarında bildirir*: "Mən nəyi, nə vaxt və necə etməyi özüm bilirəm"* (https://www.qanunla.az/ermenistan-30-il-erzinde-torpaqlarimizi-isgal). Çünki dövlət başçımızın qətiyyətinə və prinsipiallığına inanan Azərbaycan xalqının böyük əksəriyyəti şübhə etmirdi ki, Ali Baş Komandan indiyədək bütün vədlərini yerinə yetirib, dediyi sözlərə əməl edib. Və 30 ilə yaxın işğal altında olan torpaqlarımızı Azərbaycan Prezidenti, Ali Baş

Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu işğaldan azad etdi.

Prezident İlham Əliyev müraciətində bildirdi ki:

*‘’2023-cü ilin aprel ayında isə biz ərazi bütövlüyümüzü tam bərpa etmişdik. Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsi qurulmuş və o gündən bəri Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilmişdir. Azərbaycan xalqı yaxşı xatırlayır ki, dünyada, xüsusilə Qərb ölkələrində Ermənistanın arxasında dayanan, onlara daim dəstək göstərən ölkələrdə nə qədər hay-küy qaldırılmışdı, bizə qarşı əsassız ittihamlar irəli sürülmüşdü. Heç bir ittiham, heç bir təzyiq bizim iradəmizə təsir edə bilmədi. Mən o vaxt da demişdim ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq, öz sərhədimizi özümüz nəzarətə götürmüşük və heç kimə imkan vermərik ki, bizim torpağımızda at oynatsın. Bu, bizim torpağımızdır, bu torpağın sahibi bizik, nə lazım biliriksə, onu da edəcəyik, beynəlxalq hüquq çərçivəsində, o cümlədən beynəlxalq humanitar hüquq çərçivəsində. O da dərs olmadı işğalçılara, o da dərs olmadı onların arxasında* dayanan anti-*Azərbaycan qüvvələrə. Ona görə sentyabr ayında keçirilmiş antiterror əməliyyatı labüd idi və biz bunu keçirdik, bununla da fəxr edirik, qürur hissi keçiririk. Hər bir Azərbaycan vətəndaşı, dünyada yaşayan hər bir azərbaycanlı haqlı olaraq qürur hissi keçirir.’’* (https://president.az/az/articles/view/62976).

2023-cü il sentyabrın 19-da Azərbaycan üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə antiterror əməliyyatına başladı (Əliyeva, 2023).

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 2023-cü il sentyabrın 19-da yaydığı məlumatda Azərbaycan dövlət adından antiterror tədbirlərinin dayandırılması üçün 3 şərt açıqlamışdı: qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı, bütün silahlar təhvil verilməli, qanunsuz rejim özünü buraxmalıdır. Əks-təqdirdə, lokal antiterror tədbirləri sona qədər davam etdiriləcək. Bir neçə ay ərzində Azərbaycan nümayəndələri ilə görüşdən imtina edən Qarabağın erməni icmasının nümayəndələri səhəri gün bu şərtləri qəbul etmək məcburiyyətində qaldılar.

Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində bölgədə qalan Ermənistan silahlı qüvvələri tam tərksilah edilərək Azərbaycan ərazisindən çıxarıldı, qondarma rejimin

qalıqları isə onun ləğv olunduğunu elan etdi. Azərbaycan öz ərazisində separatçılığa, "boz zona"ya son qoydu. Bununla da Azərbaycan Respublikasının dövlət suverenliyi tam bərpa edildi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində, Xocalı şəhərində, Xocalı rayonunun Əsgəran qəsəbəsində, Xocavənd şəhərində və Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı (https://president.az/az/articles/view/62901). 2023-cü il noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirildi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev paradda çıxış edərək demişdir: "Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir" ((https://hanoi.mfa.gov.az/az/news/3377/xankendi-seherinde-veten-muharibesinde-elde-edilen-zeferin). Fiziki, mənəvi cəhətdən sağlam, vətənpərvər gəncliyin yetişməsi və milli ruhda tərbiyəsi, bu kontekstdə qara qızılın intellektual kapitala çevrilməsi istiqamətində də Azərbaycanın yeni strateji yol xəritəsini müəyyənləşdirdi, qarşıda duran məqsəd və hədəflərə çatmaq üçün sistemli fəaliyyəti təmin etdi. Keyfiyyətli təhsilə əlçatanlığın gücləndirilməsi, xaricdə təhsil imkanlarının genişləndirilməsi, milli həmrəyliyin əsasını təşkil edən azərbaycançılıq ideologiyasının təşviqinə və təbliğinə xüsusi diqqət yetirilməsi, Azərbaycanın idman ölkəsinə çevrilməsi və digər mühüm istiqamətlərdə atılan addımlar respublikamızın intibahını, yüksəlişini və tərəqqisini sürətləndirdi (Kamalqızı, 2022).

**Sonuç**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli maraqlara əsaslanan strateji kursunun nəticəsi olaraq xalqın həmrəyliyinin daha da gücləndirilməsi Azərbaycanın qüdrətinin artmasını təmin etməklə yanaşı, ölkəmiz üçün yeni perspektivlər açıb. Azərbaycançılıq ideologiyasının təbliği və təşviqi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi, paralel olaraq respublikamızda müxtəlif xalqların nümayəndələrinin sülh, sabitlik və təhlükəsizlik şəraitində yaşaması, islahatlar nəticəsində siyasi qüvvələrin ümummilli məsələlərdə vahid platformada birləşməsi və digər amillər milli birliyin əsaslarını gücləndirib.

Paralel olaraq ordu quruculuğu strategiyasının müvəffəqiyyətlə icra olunması, müasir standartlar və yeni yanaşmalar əsasında Silahlı Qüvvələrin döyüş qabiliyyətinin, hərbi hazırlıq səviyyəsinin artırılması, maddi-texniki təchizatının gücləndirilməsi Azərbaycanın öz milli maraqlarını, suverenliyini döyüş meydanında - hərb səhnəsində təmin etməsini şərtləndirdi.

Azərbaycan öz hədəfinə - ərazi bütövlüyünün bərpasına doğru hücum xarakterli, dərin strateji diplomatiya siyasəti həyata keçirməklə irəlilədi. Azərbaycanın haqq işində qətiyyətli və birmənalı mənəvi-siyasi dəstək qazanılması baxımından xüsusi əhəmiyyətə malik oldu. Qərəzli dairələrin məkrli planlarının iflasa uğradılması, Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi qərar və qətnamələrin qəbuluna nail olunması münaqişənin həlli istiqamətində ölkəmizin mövqeyinin möhkəmlənməsinə şərait yaratdı.

Azərbaycanın qarşısında duran strateji vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərdə nəhəng quruculuq işlərinin aparılması, həmin torpaqlarda layiqli və dayanıqlı məskunlaşmanın təmin olunması üçün Böyük Qayıdışın həyata keçirilməsidir. Bu istiqamətdə mühüm addımlar atılır, həmin ərazilərdə müasir texnologiyalardan istifadə olunur, innovasiyalar tətbiq edilir, yeni infrastruktur yaradılır. Bununla yanaşı, regionda kommunikasiya xətlərinin bərpası geniş formatda unikal əməkdaşlıq imkanlarının formalaşması deməkdir. Bu, Azərbaycanın həm tranzit, həm də ixracatçı ölkə kimi mövqeyini möhkəmləndirəcək, Şərqdən Qərbə, Asiyadan Avropaya doğru geniş coğrafiyada Azərbaycanın geosiyasi nüfuz zonasının, işbirliyi və inteqrasiya dairəsinin genişlənməsini təmin edəcək.

## Kaynaklar

Adıgözəlov, K. (2021, iyul 29). *Şuşa Bəyannaməsi*: *yeni müttəfiqlik formatına yol açan tarixi sənəd*. Xalq qəzeti, 155, 3.

Ağalarlı, M. (2023).Güney Qafqaz bölgəsində sülhün və təhlükəsizliyin təmin edilməsində "Şuşa Bəyannaməsi" nin rolu. *Akademik Tarih ve Düşünce Dergisi*, *10* (2), 258-274.

Ağalarlı, M. (25 jule, 2022). Azərbaycan hərb tarixinin humanitar aspektləri: II Qarabağ savaşı konteksində. *Shusha city and Turkic civilization: Historicity and Contemporaneity Conference, The conference book.*

Aslanlı, A. (2021). Şuşa Beyannamesi bölgesel barış ve iş birliğinin teminatı. https://www.aa.com.tr/tr/analiz/susa-beyannamesi-bolgesel-baris-ve

*Böyük Qayıdış*. (2021). I kitab, Şərq-Qərb.

Əhmədov, E. (2021). Azərbaycanın diplomatik uğurları: İkinci Qarabağ müharibəsində tarixi Qələbəni şərtləndirən mühüm amillər. https://azertag.az/xeber/azerbaycanin_

Əliyeva, N. (2023). 19 sentyabr tarixli antiterror tədbirlərin səbəbi https://www.aktualinfo.az/news/19-sentyabr-tarixli-antiterror

Ermənistan-Azərbaycan münaqişəsi, https://president.az/az/pages/view/azerbaijan/karabakh

Ermənistan 30 il ərzində torpaqlarımızı işğal altında saxlayıb, https://www.qanunla.az/ermenistan-30-il-erzinde-torpaqlarimizi-isgal-altinda-saxlayib/

Əvəz, R. (2023 oktyabr 10 ). *Qarabağdakı qondarma rejim gömülməlidir!*. Xalq qəzeti.

Güler, C. (2021). *Türkiye'nin Rusya ve Kafkasya politikası.* Türk dış polıtıkası yıllığı 2020, SETA. https://president.az/az/articles/view/

Kamalqızı, R. (2022). Qarabağda görülən işlər, həyata keçirilən meqalayihələr. https://sia.az/az/news/politics/935890.

Məmmədov, N. (2022). *İkinci Qarabağ Müharibəsi: Zəfər salnaməsi.* Optimist.

Mustafayev, O., Məhərrəmov, V. (2023). Tariximizin qürur duyulası səhifəsi. https://mod.gov.az/az/pre/49701.html

Rəşid, L. (2021, 20 iyun). *Şuşa Bəyannaməsi regional və qlobal təhlükəsizliyə zəmin yaradır.* Xalq qəzeti.

Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib. (https://hanoi.mfa.gov.az/az/news/3377/xankendi-seherinde-veten-muharibesinde-elde-edilen

*Zəfər yolu. Qarabağ savaşından Şuşa Bəyannaməsinədək.* (2021). Elm.

https://president.az/az/articles/view/62976